Heydər Əliyev adına
AZƏRBAYCAN ALİ HƏRBİ MƏKTƏBİ

**RAMİD HÜSEYNOV**

# POLİTOLOGİYA

ALİ MƏKTƏBLƏR ÜÇÜN DƏRS VƏSAİTİ

*Heydər Əliyev adına Azərbaycan
Ali Hərbi Məktəbinin Elmi Şurasının
30.06.2017-cı il tarixli iclasının qərarı ilə
(Protokol № 15) dərs vəsaiti kimi təsdiq edilmişdir.*

**BAKI – 2017**

**Elmi redaktor:**
**Əlikram Abdullayev**
*fəlsəfə elmlər doktoru, professor*

**Redaktor:**
**Sevda Hüseynova**
*fəlsəfə üzrə fəlsəfə doktoru,*
*dosent*

**Rəyçilər:**
**Hikmət Babaoğlu**
*siyasi elmlər doktoru, professor*

**Cəlil Xəlilov**
*siyasi elmlər üzrə fəlsəfə doktoru,*
*dosent*

**Elnur Abbaszadə**
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

**Ramid Hüseynov.**
**POLİTOLOGİYA.** Ali məktəblər üçün dərs vəsaiti.
Bakı, **"3 saylı Bakı Mətbəəsi"**, 2017
280 səh.

**ISBN** 978-9952-410-68-6

*Dərs vəsaiti politologiyanın obyekti və predmeti və bundan irəli gələn məsələlərin həllinə həsr edilmişdir. Bununla belə, dövlət fenomeni, onun təsnifatı, siyasi rejimlər, demokratiya və hüquqi dövlət idarəçiliyi, siyasi təsisatlar, cəmiyyətin siyasi inkişaf istiqamətləri, fərdin idarəetmə bacarığı, siyasi mədəniyyəti, liderlik keyfiyyətlərinin formalaşması xüsusiyyətləri, xarici siyasət və xarici siyasətdə təhlükəsizlik məsələləri və s. şərh olunur.*

*Dərs vəsaitində əksini tapmış mövzuların daha asan başa düşülməsi üçün müasir tədris prosesinin tələbləri nəzərə alınmaqla müqayisəli və sistemli təhlillər, paralellər aparılmış, çoxlu sxem və cədvəllər əks olunmuşdur.*

*Dərs vəsaiti ali məktəblərin tələbələri (xüsusi təyinatlı ali məktəblərin kursantları), magistrləri, doktorantları, professor-muəllim heyəti və siyasi elmin nəzəri əsasları ilə maraqlananlar üçün nəzərdə tutulmuşdur.*

*030 / 1304 - 2017* *qrifli nəşr*

© **R.S.Hüseynov,** 2017

# MÜNDƏRİCAT

**ÖN SÖZ**....................................................................................11

**I BÖLMƏ.**
POLİTOLOGİYANIN NƏZƏRİ ƏSASLARI

**1. Siyasət və siyasət haqqında biliklər**..............................16
1.1. Siyasət, onun mahiyyəti və aspektləri................................16
1.2. Siyasi biliklərin yaranması və təkamülü..............................20
Məşğələlərə hazırlıq sualları..............................................25
Sərbəst işin mövzuları.........................................................26
Ədəbiyyat...........................................................................26
Test yoxlaması....................................................................27

**2. Politologiyanın predmeti və strukturu**..........................29
2.1. Politologiyanın predmeti, tədqiqat obyekti və digər elmlərlə əlaqəsi....................................................................29
2.2. Politologiyanın kateqoriyaları, metodları və funksiyaları..................................................................................32
2.3. Politologiyanın öyrənilməsinin əhəmiyyəti..........................38
Məşğələlərə hazırlıq sualları..............................................41
Sərbəst işin mövzuları.........................................................41
Ədəbiyyat...........................................................................41
Test yoxlaması....................................................................42

**3. Azərbaycanda siyasi fikrin inkişaf tarixi**.......................44
3.1. Qədim və orta əsrlərdə siyasi fikrin inkişafı.......................44
3.2. Maarifçilik dövrünün siyasi görüşləri..................................47
3.3. Politologiyanın müstəqil elm kimi formalaşması................51
Məşğələlərə hazırlıq sualları..............................................53
Sərbəst işin mövzuları.........................................................54
Ədəbiyyat...........................................................................54
Test yoxlaması....................................................................55

# II BÖLMƏ.
SİYASİ SİSTEM VƏ SİYASİ STRUKTUR

**4. Siyasi sistem nəzəriyyəsi**............................................58
4.1. Siyasi sistemin məzmunu və strukturu............................58
4.2. Siyasi sistemlərin təsnifatı və müqayisəli təhlili..............63
4.3. Azərbaycan Respublikasının siyasi sistemi.....................67
Məşğələlərə hazırlıq sualları.............................................70
Sərbəst işin mövzuları......................................................70
Ədəbiyyat..........................................................................70
Test yoxlaması..................................................................71

**5. Dövlətin təşəkkülü və tarixi inkişafı**............................73
5.1. Dövlət anlayışının mahiyyəti və ona yanaşmalar...........73
5.2. Dövlətin meydana gəlməsi haqqında nəzəriyyələr........75
5.3. Dövlətin formalaşması prosesi.........................................81
Məşğələlərə hazırlıq sualları.............................................84
Sərbəst işin mövzuları......................................................84
Ədəbiyyat..........................................................................84
Test yoxlaması..................................................................85

**6. Dövlətin əlamətləri, formaları və funksiyaları**.........................................................87
6.1. Dövlətin əlamətləri və funksiyaları...................................87
6.2. Dövlətlərin formalara görə təsnifatı..................................90
Məşğələlərə hazırlıq sualları.............................................99
Sərbəst işin mövzuları......................................................99
Ədəbiyyat..........................................................................99
Test yoxlaması................................................................100

**7. Dövlətlərin güclərinə görə təsnifatı**...........................102
7.1. Dövlətin gücü anlayışının mahiyyəti..............................102
7.2. Dövlətin gücünü şərtləndirən əsas amillər....................104
7.3. Beynəlxalq münasibətlərdə dövlətin gücünün yaranmasının əsasları.....................................................109
Məşğələlərə hazırlıq sualları...........................................114
Sərbəst işin mövzuları....................................................114
Ədəbiyyat........................................................................114

Test yoxlaması..............................................................115

**8. Siyasi rejimlər**..............................................................117
8.1. Siyasi rejimlərin mahiyyəti və təsnifatı..........................117
8.2. Totalitar və avtoritar rejimlərin xüsusiyyətləri...............122
8.3. Demokratik rejim və onun xarakteristikası....................126
Məşğələlərə hazırlıq suallar...........................................131
Sərbəst işin mövzuları.....................................................131
Ədəbiyyat.........................................................................131
Test yoxlaması..............................................................132

**9. Siyasi partiyalar**..............................................................134
9.1. Siyasi partiya anlayışı....................................................134
9.2. Siyasi partiyaların təsnifatı və funksiyaları....................137
9.3. Partiya sistemləri və onların xüsusiyyətləri...................142
Məşğələlərə hazırlıq sualları..........................................144
Sərbəst işin mövzuları.....................................................145
Ədəbiyyat.........................................................................145
Test yoxlaması..............................................................146

## III BÖLMƏ.
DEMOKRATİYA VƏ ONUN İNSTİTUTLARI

**10. Demokratiya fenomeni**..............................................150
10.1. Demokratiya anlayışının mahiyyəti.............................150
10.2. Demokratiyanın tarixi inkişaf formaları.......................153
10.3. Demokratiyanın hüquqi tənzimlənməsi – hüquqi dövlət və idarəetmənin effektivliyinin artırılması........161
Məşğələlərə hazırlıq sualları........................................166
Sərbəst işin mövzuları...................................................166
Ədəbiyyat.......................................................................166
Test yoxlaması.............................................................167

**11. Seçkilər**..............................................................169
11.1. Seçkilərin mahiyyəti və funksiyaları............................169
11.2. Seçkilərin prinsipləri və hüquqi əsasları.....................172
Məşğələlərə hazırlıq sualları........................................179

Sərbəst işin mövzuları....................................................179
Ədəbiyyat.........................................................................179
Test yoxlaması..................................................................180

## IV BÖLMƏ.
CƏMİYYƏTİN SİYASİ XARAKTERİSTİKASI

**12. Siyasi şüur, siyasi mədəniyyət və siyasi etika**..........................................................184
12.1. Siyasi şüur anlayışının mahiyyəti................................184
12.2. Siyasi mədəniyyət........................................................187
12.3. Şəxsiyyətin fəaliyyətində etik davranış prinsipləri.......................................................................193
Məşğələlərə hazırlıq sualları..........................................197
Sərbəst işin mövzuları....................................................197
Ədəbiyyat.........................................................................197
Test yoxlaması..................................................................198

**13. İdarəetmənin xüsusiyyətləri, liderlik fenomeni**..........................................................200
13.1. İdarəetmə anlayışının mahiyyəti və məzmunu..........200
13.2. Liderlik: xüsusiyyətləri və funksiyaları........................202
13.3. İdarəetmə mədəniyyətinin formalaşması....................207
Məşğələlərə hazırlıq sualları..........................................210
Sərbəst işin mövzuları....................................................210
Ədəbiyyat.........................................................................210
Test yoxlaması..................................................................211

## V BÖLMƏ.
XARİCİ SİYASƏTİN MÜHUM TƏRƏFLƏRİ

**14. Xarici siyasət və onun əsas vəzifələri**..................214
14.1. Xarici siyasətin mahiyyəti və məzmunu....................214
14.2. Xarici siyasətin məqsəd və vəzifələri........................218
14.3. Azərbaycan dövlətinin xarici siyasət fəaliyyəti........223
Məşğələlərə hazırlıq sualları........................................229

Sərbəst işin mövzuları...............................................230
Ədəbiyyat..................................................................230
Test yoxlaması...........................................................231

**15. Təhlükəsizlik sahəsində dövlətin xarici siyasət fəaliyyəti**.....................................................233
15.1. Təhlükəsizlik anlayışı, məzmunu və növləri............233
15.2. Milli təhlükəsizlik anlayışı və əsas istiqamətləri.................................................................235
15.3. Hərbi təhlükəsizlik və onun təmin edilməsi.............239
15.4. Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti: formalaşması və prioritetləri......................242
Məşğələlərə hazırlıq sualları.......................................248
Sərbəst işin mövzuları...............................................249
Ədəbiyyat..................................................................249
Test yoxlaması...........................................................250

**Terminlər lüğəti**...........................................................................252

**Ədəbiyyat**.......................................................................................265

**Testlərin cavabları**.........................................................................274

**Резюме**……………………………………………………….....275

**Summary**.........................................................................................277

# ÖN SÖZ

*Müasir qloballaşan dünyanın qarşısında duran başlıca problemlərdən biri məhz mürəkkəb məcrada cərəyan edən siyasi proseslərin düzgün tənzimlənməsi və idarə edilməsidir. Dövlətlərin geostrateji maraqlarının toqquşması və bundan irəli gələrək baş verən hadisələr: ölkələrdaxili çəkişmələr (etnik, mədəni, dini), dövlətlərin siyasi idarəetməsində, cəmiyyətin sosial-iqtisadi və mənəvi həyatında baş vermiş problemlər qlobal məna kəsb etməkdədir. Amma unutmaq olmaz ki, bəşər cəmiyyətinin hələ ilkin dövrlərindən bu günümüzə kimi siyasət və ondan irəli gələn vəzifələrin həlli, təşkili və idarəolunması hər zaman bəşəriyyətin qarşısında duran mühüm problemlərdən biri olmuşdur. Təsadüfi deyil ki, Aristotelin "siyasətdən kənar cəmiyyət yoxdur" ifadəsi müasir dövrümüzdə daha çox özünün təsdiqini tapmaqdadır.*

*Sözü gedən problemlərin həlli məsələlərindən biri kimi, cəmiyyət üzvlərinin siyasi biliyinin, intelektual səviyyəsinin, siyasi mədəniyyətinin yüksəldilməsi, dövlət və cəmiyyət haqqında təsəvvürlərinin artırılması, onların siyasi hadisələrin və proseslərin fəal iştirakçıları kimi tərbiyə edilməsi ilə mümkün ola bi-lər. Bu istiqamətdə ən etibarlı vasitə kimi təhsil müəssisələrində politologiyanın geniş formada tədris edilməsidir. Xüsusilə də özünün inkişaf strategiyasını intellektual insan resurslarının inkişaf etdirilməsi üzərində quraraq, elmin, innovativ təhsilin tərəqqisini demokratik dövlət quruculuğunun başlıca meyarı he-sab edən ölkələr yüksəlişə daha asan və etibarlı surətdə nail olurlar.*

*Dünyada olduğu kimi respublikamızda da baş verən siyasi proseslər: demokratik idarəetmənin təşkili, seçkilər, siyasi partiyaların fəaliyyəti, siyasi-hüquqi islahatların aparılması, vətəndaş cəmiyyəti, siyasi plüralizm və s. məsələlərə yanaşmanın yeni müstəviyə yüksəlməsi özlüyündə cəmiyyətin siyasi cəhətdən daha yetkin olmasını, siyasi gerçəkliyi kütləvi şüurda düzgün əks et-*

*dirməsini, siyasi prosesləri düzgün qiymətləndirməklə onun rasional iştirakçısına çevrilməsini tələb edir.*

*Cəmiyyətin siyasi dünyagörüşünün inkişafı bütünlükdə dövlətin güclənməsinə, möhkəmlənməsinə imkan verir. Siyasi proseslərə yeni yanaşmanın nümayişi onun daha geniş formada və daha fundamental şəkildə öyrənilməsini, bu da nəticə etibarilə politologiyanın bir elm olaraq inkişafını və ali tədris müəssisələrində tədrisininin şaxələnməsini zəruri edir.*

*Siyasi hazırlıq vərdişlərinin gündəlik praktikada tətbiq edilməsinin imkanlarının çoxalması politologiyanın idarəetmənin strategiya və taktikasının işlənib hazırlanmasındakı rolunu daha da artırır. Bu həm də siyasətdə gözlənilməz, qabaqcadan nəzərdə tutulmamış cəhətlərin heçə endirilməsinə, onun daha başa düşülən, anlaşıqlı olmasına kömək etmiş olur.*

*Azərbaycan Respublikasında ötən əsrin 90-cı illərindən başlayaraq ölkənin əksər ali təhsil məktəblərində politologi-ya müstəqil elm və tədris fənni kimi ixtisas və qeyri-ixtisas qruplarında keçirilir. Artıq ölkədə bu elmi ixtisas üzrə çoxlu tələbə, magistr, aspirant yetişmişdir. Onların bəziləri elmi araşdırmalar aparmış, "siyasi elmlər üzrə fəlsəfə doktoru" dissertasiyasını müdafiə edərək alimlik dərəcəsinə yüksəlmişlər. Politologiyaya aid müxtəlif dərsliklər, dərs vəsaitləri və proqramlar tərtib edilmiş, siyasi həyatın müxtəlif sahələrinə həsr olunmuş xeyli sayda monoqrafiyalar yazılmışdır.*

*Qeyd etmək lazımdır ki, informasiya-kommunikasiya texnologiyalarının, televiziyanın, internetin geniş inkişaf etdiyi bir məqamda dərsliklərin yazılması zamanı onların imkanları nəzər alınmalıdır. Yəni dərsliklər müasir oxucu marağını cəlb etməklə onlarda yaradıcı təfəkkürün inkişafına xidmət etməlidir. Dərsliklərdən istifadə zamanı ayrılmış vaxt çərçivəsində daha səmərəli və effektiv nəticənin əldə edilməsi müasir dövrün ən önəmli məqamlarından biridir.*

*Bu baxımdan hazırkı dərs vəsaitinin yazılmasında Bolonya prosesində ali məktəb proqramları ilə bağlı müəyyənləşdirilən konseptual müddəalar: müasir tədris prosesinin çevikliyi, dinamikliyi və səmərəliliyi nəzərə alınmaqla, oxucuda motivasiyanın*

*formalaşdırılması qarşıya məqsəd qoyulmuşdur. Bu baxımdan ancaq yazı mətnindən ibarət olan və müasir tələblər baxımdan yorucu təsir bağışlayan kitablarla müqayisədə bu dərs vəsaitində qoyulmuş məsələlərin oxucunun marağını cəlb etməsi, daha yaxşı anlaşılması, yadda qalan olması üçün mətnlə paralel olaraq çoxlu sxemlərin, cədvəllərin, şəkillərin, məşğələyə hazırlıq suallarının, sərbəst işin mövzularının, test çalışmalarının və s. verilməsi kitabın interaktivliyini və oxunaqlığını təmin etməyə ümid yaradır. Eyni zamanda əksini tapmış məsələlərin tam izahının verilməsi, müqayisəli və sistemli analizinin aparılması qoyulan problemin mahiyyətini açmağa imkan verir, onun oxucuya tam olaraq çatdırılmasına kömək edir.*

*İnanırıq ki, təqdim edilən bu dərs vəsaiti politologiya elminin öyrənilməsində, onun tədqiq və tədris olunmasında: mühazirə mövzularının işlənməsində, tələbələr üçün isə seminar məşğələlərinə və imtahanlara hazırlaşmaqda yardımçı olacaqdır. Bu həm də siyasi biliklərin öyrənilməsi ilə məşğul olan şəxslərin siyasi təfəkkür tərzinin, siyasi şüurunun zənginləşməsinə də müsbət təsir edəcəkdir.*

**Əlikram Abdullayev**
*Dövlət İdarəçilik Akademiyasının I prorektoru,*
*fəlsəfə elmlər doktoru, professor*

# 2.FƏSİL
# Politologiyanın predmeti və strukturu

2.1. Politologiyanın predmeti, tədqiqat obyekti və digər elmlərlə əlaqəsi
2.2. Politologiyanın kateqoriyaları, metodları və funksiyaları.
2.3. Politologiyanın öyrənilməsinin əhəmiyyəti

## 2.1. Politologiyanın predmeti, tədqiqat obyekti və digər elmlərlə əlaqəsi

Cəmiyyətin siyasi həyatı fəlsəfə, sosiologiya, siyasi sosiologiya, dövlət və hüquq, siyasi psixologiya və s. elmlər tərəfindən öyrənilsə də, politologiya bu obyektin yalnız özünə aid olan tərəfini (hissəsini) tədqiq edir. Politologiyanın tədqiqat obyekti kimi üç fundamental problem – ***siyasət, dövlət və hakimiyyət*** təşkil edir. Bu üç fenomen bir-birilə daxili bağlılıq kəsb edir. Dövlətin hakimiyyətlə və siyasətin hakimiyyətlə əlaqələndirilməsi politologiyanın predmetinin spesifik məqamlarındandır. Çünki siyasət hakimiyyət, hakimiyyət isə dövlət vasitəsilə həya-ta keçirilir.

Müasir qərb politoloqlarının əsərlərinə müraciət etsək görərik ki, ***politologiyanın tədqiqat obyektinə*** aşağıdakı məsələlər daxildir: *siyasi sistemlərin müqayisəli təhlili; siyasi fəlsəfə və onun çərçivəsində siyasi hakimiyyətin təhlili; siyasi təsisatlar və onların qarşılıqlı əlaqəsi; kütləvi informasiya vasitələri siyasi təsisat kimi; siyasi davranışın təhlili; siyasi fəaliyyətin müqayisəli təhlili; siyasi prosesin inkişaf qanunauyğunluqları; siyasi*

NÜMUNƏ

*mədəniyyətin və siyasi ənənələrin müqayisəli təhlili; xarici siyasət və beynəlxalq münasibətlər nəzəriyyəsi və praktikası.*

Politologiyanın predmetini *siyasət və siyasi təsisatların vasitəsilə cəmiyyətlə şəxsiyyətin qarşıqlı münasibətləri təşkil edir.* Deməli, **obyekt** *reallığın bir hissəsi olduğu halda*, **predmet** *həmin obyektə bilavasitə aid olan prosesləri, əlaqə və münasibətləri əhatə edir*. Daha geniş formada ifadə etsək, ***politologiyanın predmetini*** - cəmiyyətin siyasi sisteminin prinsipləri, onun ***əsas ünsürlərinin***: *dövlət, siyasi partiyalar və ictimai təşkilatların qarşılıqlı əlaqəsi, dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi ictimai-siyasi münasibətlərin tənzimlənməsi, xarici siyasət məsələləri, beynəlxalq siyasi fəaliyyət və beynəlxalq münasibətlərin formalaşdırılması* problemləri təşkil edir.

***Politologiyanın qarşısında duran vəzifə*** ikili səciyyəvi məqsəd daşıyır: bir tərəfdən o, *dar idrakı vəzifələri həll edir*, digər tərəfdən isə onun başlıca vəzifəsi *siyasi fəaliyyətdə elmi nəticələrdən əməli surətdə istifadə etməkdir*. Bunları bir-birindən tamamilə ayırmaq mümkün olmasa da, hər halda, elmin xüsusiyyətlərini göstərmək üçün bu iş vacibdir.

### *Humanitar və sosial elmlərlə politologiyanın qarşılıqlı əlaqəsi*

Tədqiq etdiyi obyektin spesifikliyinə uyğun olaraq, politologiya bir sıra sosial, bəzi hallarda isə hətta dəqiq elmlərlə: ***fəlsəfə, sosiologiya, hüquq, tarix, psixologiya, antropologiya, kibernetika*** və s. ilə sıx əlaqədə və qarşılıqlı təsirdə inkişaf edir.

Bunları bir-birilə birləşdirən ümumi cəhət *siyasi əlaqələr, siyasi qanunauyğunluqlardır*. ***Fəlsəfə*** fərdin dünyagörüşünü öyrənirsə, *siyasi fəlsəfə* siyasi fəaliyyətin məzmununu, xarakterini və formalarını, hakimiyyətin, siyasi seçimin və meyllərin mahiyyətini açıqlayır. ***Sosiologiya*** cəmiyyətin sosial proseslərini, sosial mühitin siyasi aləmə təsirini, *siyasi sosiologiya* dövlətlə cəmiyyətin, siyasi təsisatlarla sosial quruluşların qarşılıqlı münasibətlərini öyrənir. Politologiyanın diqqət mərkəzində siyasi prosesin özü, sosiologiyanın diqqət mərkəzində siyasi proseslərdə iştirak edən insan durur. Politologiya ilə siyasi sosiologiya arasındakı fərqdən bəhs edərkən İtaliya mənşəli ABŞ politoloqu

**Covanni Sartori** yazır ki, "*sosiologiya cəmiyyətin dövlətə, politologiya isə dövlətin cəmiyyətə təsirini öyrənir*". Bir çox Avropa ölkələrində və ABŞ-da siyasəti, siyasi prosesləri tədqiq edən elm sahələrini *"siyasi sosiologiya"* adlandırırlar.

***Hüquq*** dövlət təşkilatlarının fəaliyyətlərinin, səlahiyyətlərinin hədlərini müəyyən edir, siyasi qərarların işlənib hazırlanması və reallaşması mexanizmini öyrənirsə, politologiya isə dövlət təşkilatlarının səlahiyyətləri daxilində siyasi fəaliyyətə diqqət verir. ***Tarix*** keçmiş dövrdə dövlətlər, siyasi ideya və təsisatlar haqqında məlumatların xronologiyasını, politologiya isə həmin məlumatlar əsasında dövlətin, siyasi sistemlərin, siyasi partiyaların yaranması tarixini öyrənir. Bu iki elmin bağlılığını göstərən **E.Frimen** yazırdı: ***"Tarix keçmiş siyasətdir, siyasət isə hazırkı tarixdir"***.

***Psixologiya*** insanların *siyasi davranışlarının streotiplərini və psixoloji mexanizmlərini* öyrənir və politologiya siyasi liderlərin xarakterini tədqiq edərkən bu elmdən istifadə edir. ***Antropologiya*** insanın yaranışdan hazırkı dövrə kimi keçdiyi inkişa-fını (fiziki baxımdan təkamülünü) tədris edir.

***Kibernetikanın*** XX əsrin ikinci yarısından başlayaraq yaranması, riyazi statistikanı modelləşdirməyə tətbiqi, siyasi proseslerin modelləşdirilməsinə imkan yaratdı və beləliklə kibernetika ilə politologiya arasındakı əməkdaşlıgı meydana gətirdi.

Beləliklə politologiyanın digər humanitar və sosial elmlərlə əlaqəsi bir çox tədris müəssisələrində bu elmin digər biri ilə birləşərək ayrıca fənn formasında tədrisinə də imkan vermişdir. Eyni zamanda insanın müxtəlif aspektdən öyrənilməsi göstəri-lən elm sahələrinin yaxınlaşmasını, birgə fəaliyyət göstərməsini zəruri etmişdir. Politologiya *insanı, cəmiyyəti öyrənmək* sahəsində sadalanan elmlərlə əlaqəli çalışır və bu istiqamətdə qarşılıqlı olaraq bir-birilərinin köməyinə ehtiyac duyurlar.

| SİYASİ ELMLƏRİN QARŞILIQLI ƏLAQƏSİ | |
|---|---|
| SİYASƏTİN BİRBAŞA ÖZÜNÜN TƏDQİQİ İLƏ MƏŞĞUL OLAN FƏNLƏR: | SİYASƏTİN İCTIMAİ HƏYATIN BAŞQA SAHƏLƏRİ İLƏ QARŞILIQLI ƏLAQƏLƏRİNİ ÖYRƏNƏN FƏNLƏR: |
| - siyasi fəlsəfə | - siyasi psixologiya |
| - siyasi təsisatlar haqqında təlim | - siyasi antropologiya |
| - dövlət idarəçiliyi nəzəriyyəsi | - siyasi coğrafiya |
| - siyasi tarix | - siyasi astrologiya |
| - müqayisəli politologiya | - siyasi kulturologiya |
| - siyasi konfliktologiya | - siyasi iqtisadiyyat |
| - beynəlxalq siyasət nəzəriyyəsi | - siyasi kibernetika |

## 2.2. Politologiyanın kateqoriyaları, metodları və funksiyaları

***Politologiyanın kateqoriyaları***

Politologiyanın bir elm kimi tarixi təkamülü onun kateqoriyalar sisteminin formalaşması və inkişafı ilə müşayiət olunmuşdur. İlk baxışdan belə görünə bilər ki, bu elmin tədqiqat obyektini əks etdirən anlayışların mahiyyətcə aydınlaşdırılması çox da mürəkkəb iş deyildir. Doğrudan da, hazırda burada istifadə olunan bir çox anlayışlar mənaca çoxlarına aydındır. Bununla belə, digər sosial elmlərdə olduğu kimi, politologiyanın anlayış-kateqoriya aparatının məyyən edilməsi və onun nizamlanması da metodoloji proseduradır və müəyyən çətinliklərlə bağlıdır.

Kateqoriyalar elmin predmetinin əhəmiyyətli tərəflərini əks etdirən başlıca anlayışlardandır. Başqa sözlə, **kateqoriya** – *obyektiv varlığın ən mühüm və ümumi hadisələrini ifadə edən* elmi məfhumdur (anlayış, təsəvvür, düşüncə). Anlayış və kateqoriya elmin elə dilidir ki, onu bilmədən konkret elmi problem çərçivəsində effektli ünsiyyət mümkün deyildir. Koteqoriyalar elmi idrakın inkişafı gedişində və ictimai praktika əsasında formalaşır.

Hazırda politologiyada istifadə olunan anlayışlar sistemi

birdən-birə indiki formanı almamışdır. Belə ki, məsələn, müəlliflərin əsərlərində ***“polis”, “demokratiya”*** kimi anlayışlar siyasi dildə üstünlük təşkil edirdilərsə, yeni dövrdə bunlara ***“suverenlik”, “liberallıq”***, ***“milli dövlət”, “mühafizəkarlıq”, “radikallıq”, “plüralizm”***, ***“tolerantlıq”*** və s. kimi anlayışlar əlavə olundu.

Politologiyanın kateqoriyalarının müəyyən edilməsindəki metodoloji çətinliklərdən biri burada işlədilən anlayışların çox zaman çoxmənalı və yaxud eynimənalı olmasıdır. Buna görə də həmin iş yalnız o halda mümkündür ki, siyasət və onun terminlərinin bu və ya başqa bir anlamı qəbul edilmiş olsun. Əks halda bu, çox böyük anlaşılmazlıqlara gətirib çıxara bilər. Politologiyanın tədqiqat obyektinin mürəkkəbliyi burada istifadə olunan kateqoriyaların da rəngarəngliyini şərtləndirir.




Politologiyada hər şeydən əvvəl digər sosial elmlərin kateqoriyalarından (*hüquq, cəmiyyət, sinif, etnos, qrup* və s.) istifadə olunur. Bundan əlavə, ictimai fikir tarixindən gələn bir çox kateqoriyalar (*ailə, təbiət, insan* və s.) də politoloji tədqiqatlarda geniş tətbiq olunur.

***Politologiyanın metodları***

Məqsədə çatmaq yolları, nəzəri tədqiqatın və əməli fəaliyyətin müəyyən prinsiplərinin, üsullarının məcmusu metodlardan ibarətdir. Metod tədbiq etmədən heç bir elmi və əməli vəzifəni

yerinə yetirmək mümkün deyildir. Hər bir elmin tədqiqatının nəticələri ilə bərabər, bu tədqiqatların aparılması üçün vasitə və metodların seçilməsi bir o qədər vacibdir. **Metod** yunanca *methodos* sözü olub, ***"tədqiqat üsulu", "qayda"*** deməkdir. ***Elmin metodu*** dedikdə *qarşıya qoyulan tədqiqatçılıq məqsədinin həlli üçün dərk edən subyektlə, dərk edilən obyektin qarşılıqlı fəaliyyətini təmin edən yanaşma və prinsiplərin, norma və qanunauyğunluqların, vasitə və prosedurların məcmusudur.*

Politologiyada da digər elmlərdə olduğu kimi bir sıra metodlardan istifadə edilir. Bunlar aşağıdakılardır:

| POLİTOLOGİYANIN METODLARI | | |
|---|---|---|
| **ÜMUMMƏNTİQİ** METODLAR | **NƏZƏRİ** METODLAR | **EMPRİK** METODLAR |
| analiz və sintez | sistem | müşahidə |
| abstraklaşdırma | struktur-funksional | musahibə |
| induksiya | müqayisəli | sosioloji |
| deduksiya | biheviorizm | kontent-təhlil |
| modelləşdirmə | tarixi təsvir | statistik |
| | riyazi formalaşdırma | |
| | kommunikativ | |

Cədvəldə qeyd olunan metodların bəzilərinin qısa izahını aşağıdakı kimi verək:

- ***Sistem metodu*** tədqiqat obyektinə bir tam kimi yanaşır, yəni onun bütün ünsürlərini qarşılıqlı formada, ayrı-ayrı hissələri hərtərəfli tədqiq edir. Sistemli yanaşmanın köməyi ilə siyasətin cəmiyyətin inkişafında yerini, onun ən mühüm funksiyalarını dəqiq müəyyənləşdirmək mümkündür.
- ***Struktur-funksional metod*** amerikalı sosioloq **Robert Merton** ve **Tolkott Parsons** tərəfindən hazırlanıb. Bu metod siyasətə sistemli yanaşmanın prinsiplərindən biridir. Siyasi sistemdə baş verən sosial dəyişikliklər onun struktur elementlərin funksiya və rolları vasitəsilə necə yerinə yetirilməsindən asılıdır.
- ***Biheviorçu metod*** siyasəti ayrı-ayrı fərdlərin və qrupla-rın çoxcəhətli fəaliyyətinin - davranışının tədqiqi, araşdırılması

vasitəsilə öyrənir. Bu termin psixologiyada insanın davranışına dair xüsusi nəzəriyyə kimi izah olunur.

- ❑ ***İnduksiya*** ayrı-ayrı faktlardan ümumi müddəalara doğru keçidi nəzərdə tutur.
- ❑ ***Deduksiya*** isə əksinə ümumidə konkreti axtarmaq metodudur.
- ❑ ***Müqayisəli metod*** eynicins siyasi proseslər və təsisatlar arasında oxşar və fərqli cəhətləri aşkara çıxarmaqla araşdırılması tədqiqatın daha effektiv, keyfiyyətli aparılmasına imkan verir.
- ❑ ***Tarixi təsvir metodu*** müxtəlif hadisə və proseslərin xronoloji ardıgıllıqla öyrənilməsinə yönəlir.
- ❑ ***Sosioloji metod*** seçki ərəfəsində anket üsulu ilə sorğu aparılması seçicilərin rəyinin müəyyənləşdirilməsində və buna əsasən də, düzgün proqnozun verilməsində mühüm rol oynayır.
- ❑ ***Müşahidə metodu*** hər hansı ictimai-siyasi tədbir iştirakçılarının davranışını, siyasi münaqişənin törənməsi və inkişafı prosesini, siyasi partiyaların fəaliyyəti və sairəni öyrənməyə imkan verir.

***Politologiyanın funksiyaları***

Politologiyanın cəmiyyətin həyatında oynadığı rol onun yerinə yetirdiyi **funksiyalarda** öz əksini tapır.

❍ ***Təsvir funksiyası*** siyasi reallıqda mövcud olan problemlərin qeydə alınmasını nəzərdə tutur. Lakin o, təkcə bununla bitmir, belə ki, siyasi problemləri qeydə alan tədqiqatçı bu zaman onun həllinə dəqiq normativ qiymət standartlarından istifadə etməklə müvafiq tövsiyələr verir. Beləliklə, siyasi prosesləri qeydə almaqla, politoloq siyasi reallığın xarakterini müəyyən edir və bununla da politoloji təhlilin əsasını qoymuş olur.

Aydındır ki, politoloji təhlil yalnız təsvirdən ibarət deyildir. Siyasi reallığın elə problemləri olur ki, onların mənası hamı üçün (və yaxud, əksəriyyət üçün) aydın olur. Əksər hallarda isə siyasi proseslər çox mürəkkəb və ziddiyyətli olur. Onların mənasını açmaq və həlli yollarını göstərmək dərin nəzəri təhlil tələb edir.

❍ ***İzahetmə*** (interpretasiya, sərh) ***funksiyası*** təhlil vəzifəsini yerinə yetirir. Bu funksiya əsas etibarilə siyasi problemlərin yaranma səbəblərini öyrənir və nəyə görə, məhz, o cür olduğunu izah edir. *Politoloqun* adi kənar müşahidəçidən fərqi (üstünlüyü) məhz burada aşkar olur.

Politoloqların fikrincə, siyasi həyatda birmənalı, birdəfəlik və həmişəlik bərqərar olmuş qanunauyğunluqlar deyil, cəmiyyətin, siyasi sistemlərin ümumi inkişaf meylləri, dəyişən kəmiyyətlər (müxtəlif cür mənafelər, ənənələr, müxtəlif ictimai-siyasi qüvvələrin mütəşəkkillik səviyyəsi, adamların əhval-ruhiyyəsi, onların məlumatlılıq dərəcəsi və s.) vardır. Onların qarşılıqlı təsiri siyasi inkişafın müəyyən vektorunu təşkil edir və onu 5-10 ildən artıq bir müddətə proqnozlaşdırmaq mümkün deyildir.

❍ ***Gələcəyi görmə funksiyası*** bir çox başqa elmlərdə olduğu kimi politologiyada da mühüm əhəmiyyətə malikdir. Daha dəqiq desək, siyasi təhlil yalnız problemləri sadəcə olaraq qeydə alıb onları təhlil etməklə kifayətlənmir, o, siyasi reallığın inki-şaf meyllərini və gələcəkdə mümkün nəticələrini göstərir.

❍ ***Proqnozlaşdırma funksiyası*** nəzəri biliklərə əsaslanaraq siyasi inkişaf gedişini və istiqamətini qabaqcadan görməkdə ifadə olunur. Siyasi prosesləri, eləcə də siyasətin subyektlərinin fəaliyyətini və davranışını proqnozlaşdırmaq təşəkkül tapmaqda olan ictimai şəraitə düzgün oriyentasiya götürməyə, müxtəlif meylləri öz zamanında duymağa, siyasət sferasında vaxtında və effektli qərarlar qəbul etməyə imkan yaradır.

❍ ***Metodoloji-qiymətləndirmə funksiyası*** metodlar sxeminin və tədqiqatçılıq prosedurasının (qaydalarının) təklif edilməsini, eləcə də bu tədqiqatların idraki nəticələrinin faydalı olmasına dair qiymətləndirmənin formalaşmasını nəzərdə tutur.

❍ ***İnteqrativ funksiya*** digər elmlərin siyasi və ictimai elmlər haqqında əldə etdiyi nailiyyətlərdən və faktlardan-məlumatlardan inteqrativ istifadə etməsini səciyyələndirir.

❍ ***İdraki funksiya*** siyasi inkişaf meyllərinin öyrənilməsi ilə, müxtəlif siyasi hadisələrin, proseslərin dəyişilməsini araşdırmaqla məşğuldur, çünki insanlar hansı cəmiyyətdə yaşadıqlarını bilməlidilər. Onların siyasi sistemin tamhüquqlu üzvü kimi sosial və siyasi funksiyalarını rasional şəkildə yerinə yetir-

mələri hər şeydən əvvəl siyasi biliklərinin, məlumatlarının səviyyəsindən asılıdır. Politologiya siyasətin subyekti olan fərdlərin siyasi dünyagörüşünü formalaşdırır, onların siyasət, siyasi təsisatlar haqqında təsəvvürlərini zənginləşdirir.

Politologiyanın verdiyi biliklər tərbiyəvi əhəmiyyət kəsb edir. Bunu hər bir politoloq öz fəaliyyətində nəzərə almalı və mülahizələrində obyektiv olmağa çalışmalıdır. Bu sözlər, fikrimizcə, çoxsaylı tələbə auditoriyasına daxil olan politoloq-müəllimə daha çox aiddir. Bu yerdə müasir politologiya elminin klassiki **M.Veberin** aşağıdakı sözləri yada düşür. O yazırdı ki, ***"tələbələr auditoriyada siyasətlə məşğul olmamalıdırlar. Müəllim də öz növbəsində auditoriyada olarkən siyasətlə məşğul olmamalıdır. Bu onun siyasət sferasını bir alim kimi tədqiq etdiyi məqamlara daha çox aiddir. Çünki həqiqətdə siyasi məqsədlər və siyasi qurumların, partiya mövqelərinin elmi təhlili başqa-başqa şeylərdir"***.

***İdarəetmə funksiyası*** siyasi inkişaf meyllərini və istiqamətlərini göstərən səmərəli siyasi rəhbərliyi həyata keçirmək və sosial prosesləri idarə etmək deməkdir. O, konkret informasiya və tövsiyələr verir, *in-sanların obyektiv həyat fəaliyyətinin şərtlərini və subyektiv amilləri, yəni siyasi motivləri, məqsədləri,*

**POLİTOLOGİYANIN**

**t ə d r i s i i l ə b a ğ l ı t ö v s i y ə :**

*Xüsusi təyinatlı ali təhsil müəssisələrində politologiya fənninin tədrisi zamanı (nəzərə alsaq ki, qanunvericiliyə görə hüquq mühafizə orqanlarının, əsasəndə ordunun siyasətə qarışması, müdaxiləsi yolverilməzdir) müəllimin məqsədi tələbələrə - kursantlara bu elmin yalnız nəzəri tərəflərini (praktik misallar gətirməklə) düzgün izah etməli, onlarda siyasi dünyagörüşün, siyasi şüurun, idarəetmə mədəniyyətinin, bacarığının formalaşmasına nail olmalıdır. Əks halda müəllimin ölkədə və dünyada gedən siyasi proseslərə birbaşa qoşulmaq və ya ona qarşı çıxmaq kimi hər hansı ideyanın auditoriyada formalaşdırması nəticə etibarilə dinləyicilərin siyasətə qoşulmaq istəklərini həvəsləndirmiş olar (amma bu həvəsin bilavasitə politologiya və digər sosial siyasi elmlər üzrə təhsil alan tələbələrdə yaranması normal hal hesab edilə bilər).*

*mənafeləri, ideoloji təsəvvürləri, arzu və niyyətləri* və s. əhatə edir

***Tərbiyəvi funksiya*** şəxsiyyətin siyasi mədəniyyətinin formalaşması prosesində təzahür edir. Yüksək siyasi mədəniyyət siyasi yaradıcılıq qabiliyyəti, siyasi hadisələri müstəqil qiymətləndirmək bacarığı, başqa cür düşünənlərə dözümlülük, siyasi konsensus (razılıq) axtarışı, demokratiklik, vətənpərvərlik, inam, müəyyən xüsusi mövqe kimi keyfiyyətlərin mövcudluğu ilə müəyyən olunur.

***İdeoloji funksiya*** cəmiyyətdə, dövlətdə və siyasi sistemdə mövcud olan prinsip və normaların əsaslandırılmasından və onlara alternativ əsaslar işlənib hazırlanmasından ibarətdir.

***Dünyagörüşü funksiya*** şəxsi, qrup, milli, dövlət və bəşəri maraqları düzgün qiymətləndirməyə və cəmiyyətin siyasi həyatında öz layiqli yerini tutmağa kömək edir.




## 2.3. Politologiyanın öyrənilməsinin əhəmiyyəti

Müasir dünyada cərəyan edən müxtəlif geosiyasi proseslər, qlobal siyasi təsirlər respublikamızdanda yan keçməmişdir. Ölkənin geosiyasi, geostrateji mövqeyi onu dünya üçün əhəmiyyətli məkana çevirmişdir. Dünyada və ölkəmizdə baş verən hadisələrin məntiqini düzgün dərk etmək, prosesləri lazımi səviyyədə istiqamətləndirmək zərurəti siyasəti öyrənən elmin geniş təbliğini tələb edir.

Siyasəti öyrənən elm olaraq politologiya fənninin tədrisi bu gün hər bir vətəndaşın – ali təhsilin istənilən ixtisasında oxumağından asılı olmayaraq *siyasi intelektual səviyyəsi* və *siyasi*

*davranış mədəniyyətinin* yüksəldilməsi üçün böyük əhəmiyyət kəsb edir.

Respublikamızda baş verən demokratikləşmə prosesləri, siyasi plüralizmin dərinləşməsi, müxtəlif ictimai-siyasi təşkilatların meydana gəlməsi siyasi prosesləri daha da mürəkkəbləşdirmişdir. Bu mənada siyasi biliklər fundamental və tətbiqi xarakteri artır. İndi siyasi hazırlıq vərdişlərinin gündəlik praktikada tətbiq edilməsinin imkanları daha da çoxalır. Bu vəziyyət politologiyanın *idarəetmənin strategiya* və *taktikasının* işlənib hazırlanmasındakı rolunu daha da artırır. Bu həm də siyasətdə gözlənilməz, qabaqcadan nəzərdə tutulmamış cəhətlərin heçə endirilməsinə, onun daha başa düşülən, anlaşıqlı olmasına kömək etmiş olur.

Hazırda politologiya **iki aspektdə** - *müstəqil elmi* bilik sahəsi və *tədris fənni* kimi öyrənilir. ***Elm kimi*** politologiya *siyasi fikir tarixini, siyasi sistemləri, siyasi prosesləri, siyasi şüur və siyasi mədəniyyəti, həmçinin dünyanın qlobal siyasi problemləri və inkişaf qanunnauyğunluqlarını* tətbiq edir. Eyni zamanda politologiya fundamental və tətbiqi tədqiqatlar aparır. *Tətbiqi tədqiqatlar* – cəmiyyətin yeniləşməsində hakimiyyət təsisatları-na kömək etməyi və eyni zamanda politologiya fənnini tədris edən müəllimlərə elmin öyrədilməsində, təlimin həyata keçiril-məsində istiqamət verməyi nəzərdə tutur.

***Tədris fənni*** olmaq etibarilə politologiyanın başqa məq-səd və vəzifələri vardır. Politologiya fənni tələbələrdə cəmiyyə-tin siyasi sahəsi, onun inkişaf qanunauyğunluqları haqqında təsəvvür yaratmalı və eyni zamanda onlara müasir siyasi təsisatlar, onların quruluşu və fəaliyyəti haqqında biliklər verməlidir. Bununla bərabər politologiya *siyasi proseslərin tipləri, formaları, dinamikası, onların subyektləri, siyasi mədəniyyətin məzmunu və formalaşması yolları, müasir dövrün müxtəlif ideya-siyasi konsepsiyaları, yeni siyasi təfəkkürün mahiyyəti və prinsipləri, müasir dünya inkişafının hərəkətverici qüvvələri haqqında biliklərin formalaşmasına* çalışmalıdır. Təbidir ki, tədris prosesində konkret siyasi hadisələr, ziddiyyətlər və problemlər də nəzərdən keçirilməlidir.

Bununla bərabər politologiya fənninin "*xüsusi təyinatlı ali təhsil müəssisələrində"* tədrisi nəticəsində *kursantlar* gələcək komandir (rəhbər) kimi idarəetmə vərdişlərinə: *tabeçilikdə olan şəxslərin səmərəli, effektiv idarə olunması, müxtəlif situasiyalarda (müharibə və sülh dövründə) düzgün proqnozun verilməsi, strateji planın hazırlanması və müstəqil qərar qəbul edilməsi bacarığına* yiyələnmiş olurlar.

Fənnin öyrənilməsi cəmiyyət üzvlərinin *siyasi intelektual səviyyəsi və siyasi davranış mədəniyyətinin* yüksəldilməsi üçün əhəmiyyət kəsb edir. Siyasət haqqında təlim siyasi həyatda hər cür təsadüfilikdən, gözlənilməz hallardan uzaqlaşmağın çox vacib və mühüm vasitəsidir. Politologiya insanlara öz aralarında qarşılıqlı sivil mədəniyyət yaratmağı öyrədir. Siyasi biliklər hər bir fərd, eləcə də bütün cəmiyyət üçün lazımdır ki, o:

- ✓ hansısa bir siyasi oyunda sadə bir piyadaya çevrilməsin;
- ✓ əsl siyasətçini siyasi boşboğazdan, mənsəbpərəstdən ayıra bilsin, ölkənin inkişafı naminə düzgün hərəkət etsin;
- ✓ seçkilərdə, referendumlarda şüurlu iştirak etsin, hakimiyyət orqanlarının fəaliyyətini və digər demokratik prosesləri nəzarətdə saxlasın;
- ✓ cəmiyyətdə öz yerini və rolunu, hüquq və vəzifələrini düzgün anlasın və yeri gələndə öz şəxsi maraqlarını qoruya bilsin;
- ✓ öz həyati problemlərini başqa insanlarla sivil əməkdaşlıq üsulları ilə həll etsin.

Ümumiyyətlə, *siyasi savad* hər bir cəmiyyətə ona görə lazımdır ki, o öz vətəndaşları üçün tam açıq olsun. O, demokratik, sivil, azad, məsuliyyətli insanların tam şüurlu sosiumuna çevrilsin, hakimiyyətin eqoist, səriştəsiz siyasətçilərin əlinə keçməsinə imkan verməsin, sosial həyatda özbaşınalığın, qanunsuzluğun, antihumanizmin və s. səmərəsiz fəaliyyətinə yol verməsin.

## MƏŞĞƏLƏLƏRƏ HAZIRLIQ SUALLARI

1. Politologiyanın tədqiqat obyektini və predmetini nə təşkil edir?
2. Politologiyanın kateqoriyaları və metodları hansılardır?
3. Sistem metodunun səciyyəvi cəhəti hansılardır?
4. Müqayisə metodunun hansı xüsusiyyətləri var?

NÜMUNƏ

5. Politologiyanın hansı funksiyaları mövcuddur?
6.Təsvir funksiyası nəyi nəzərdə tutur?
7. İzahetmə funksiyası nəyi yerinə yetirir?
8. İdarəetmə funksiyası nə deməkdir və nəyi əhatə edir?
9. Politologiyanın hansı elmlərlə əlaqəsi vardır?
10. Politologiya fənninin tədrisinin əhəmiyyəti nə ilə bağlıdır?

## SƏRBƏST İŞİN MÖVZULARI

1. Politologiyanın kateqoriyaları və metodları
2. Politologiyanın funksiyaları və onların mahiyyəti
3. Politologiyanın humanitar elmlər sistemində yeri və rolu
4. Politologiyanın öyrənilməsinin və tədrisinin əhəmiyyəti

## ƏDƏBİYYAT


1. ADİU. Politologiya. Dərs vəsaiti. Bakı, 2004
2. Həşimov D. Hərbi politologiyanın problemləri. Bakı, 2003
3. Hüseynov Q. Politologiya. Dərs vəsaiti. Bakı, 1991
4. Ələkbərova N. Siyasi elmin metolodogiyası. Bakı, 2005
5. Əliyev T., Əliyev Q. Politologiya. Dərs vəsaiti. Bakı, 1994
6. Əfəndiyev M. Politologiya. Dərslik, Bakı, 2011
7. İbadov N. Müqayisəli politologiya. Bakı, 2010
8. İsgəndərzadə M. Politologiyanın əsasları. Dərs vəsaiti. Bakı, 2012.
9. Sanisteban L.S. Siyasət elminin əsasları. Bakı, 1994.
10. Пучачѐв В., Соловѐв А. Введение в политологию. Москва, 1995
11. Şirəliyev H., Əhmədov Ə. Politologiya. Dəsrlik. Bakı, 1997
12. Тургаева А., Хренова А. Политология. Москва, 2005.
13. Гаджиев К. Политология. Москва, 2001
14. Хейвуд Э. Полигология. Москва, 2005
15. www.ekitab.net
16. www.ereferat.net


## TEST YOXLAMASI

**1. Politologiyanın tədqiqat obyekti nə təşkil edir?**
a) insanlar arasında sosial münasibətlər
b) quruluşun idealları və normativ prinsipiəri

c) cəmiyyət həyatının siyasi sferası
d) dünyagörüşü haqqında elmdir
e) insanların psixoloji görüşləri

**2. Politologiya hansı elmlərlə sıx bağlıdır?**

1.Hüquq; 2.Tarix; 3.Tibb; 4.Fəlsəfə; 5.Həndəsə; 6.Fizika

a) 1, 4, 5, 6;
b) 2, 3, 5;
c) 1, 2, 4;
d) 1, 2, 6;
e) 2, 3, 4, 5

**3. Politologiyanın kateqoriyalarına aid deyil?**

a) hakimiyyət b) siyasi mədəniyyət c) siyasi proses
d) siyasi sistem e) etnosentrizm

**4. Politologiyanın funksiyalarını göstərin?**

a) idarəetmə, təsvir, proqnozlaşdırma
b) nizamlayıcı, proqnozlaşdırma, izahetmə
c) mühafizəkar, izahetmə, idarəetmə
d) izahetmə, idrak, tənzimləmə
e) proqnozlaşdırma, nizamlayıcı, mühafizəkar

**5. Politologiyada istifadə edilən metodlar hansılardır?**

1.Abstraklaşdırma; 2.Fəlsəfi; 3.Elmi; 4.Tarixi təsvir;
5.Sosioloji; 6.Statistik; 7.Müqayisəli; 8.İdeoloji

a) 1,3,4,6;
b) 2,3,4,5;
c) 1,4,5,6,7;
d) 2,4,5,7;
e) 1,2,6,7,8

**6. Siyasi elmə hansı anlayışı aid etmək olar?**

a) müharibə;
b) siyasi hakimiyyət;
c) xeyir və şər
d) sosial əlaqə;
e) sosial nəzarət

NÜMUNƏ

# РЕЗЮМЕ

Данное учебное пособие рассматривает объекты, предметы политологии и решает вытекающие из неё проблемы. Пособие состоит из пяти разделов, пятнадцати глав и сорока трёх параграфов. Здесь показаны образование государства его классификация, политические режимы, демократия и правовое государственное управление, политические учреждения, направления политического развития общества, политическая культура, формирование характеристики лидерских качеств, вопросы политики, вопросы безопасности во внешней политике а также способность индивидуального управления.

В создании пособия учтены концептуальные принципы определяемые процессом обучения Болонья в высшем учебном заведении, гибкость, динамизм, эффективность современного учебного процесса а также поставлена цель мотивации у учащихся, поэтому по сравнению с учебником состоящим только из письменного содержания и оказывающим утомляющее влияние на читателя, вопросы поставленные в данном пособии выражены более доступно легко и вызывают у учащихся интерес. Вместе с этим учебное пособие содержит большое количество схем и таблиц с рисунками, подготовленными вопросами к занятиям, темами для самостоятельных работ (рефератов) и тестовых заданий а также наличие терминологического словаря даёт лёгкость усвоения книги.

Учебное пособие написано с учётом требований учебного процесса, он будет способствовать его эффективному усвоению и надеемся что данная книга поможет изучению науки политологии, её исследованию, преподаванию, разработке лекций, подготовке студентов к семинарам и экзаменам, окажет влияние на формирование политического сознания и правильного усвоения учащихся.

# SUMMARY

The textbook is dedicated to the object and subject of political science and the solution of matters arising out of this science. This text book which consists of introduction, five sections, fifteen chapters and forty three paragraphs covers the state phenomenon, its classification, political regimes, democracy and legal state administration, political institutions, and political development directions of the society, and development characteristics of management skills, political culture and leadership skills of an individual, and foreign policy and security issues in the foreign policy.

Researches and analyses are given in a comparative, systematic and interactive manner for an easy understanding of the subjects described in the textbook. The way in which the textbook has been written by taking into account the requirements of the modern educational process will allow readers to use it more effectively and perceive it faster and more easily.

In the writing of the textbook conceptual provisions defined on the higher education programs in the Bologna process - development of a motivation in readers by taking into account the flexibility, dynamism and efficiency of the modern educational process - have been set as a goal. In this regard in comparison with books consisting of only written texts and leaving a tiring impression in respect of the modern requirements the usage of a variety of schemes, tables, pictures, and questions to get prepared for a study, subjects for an individual work, tests and terminological vocabulary in the textbook encourages hope to ensure interactivity and readability of the book. At the same time, a full explanation and comparative and systematic analysis of the given matters help to reveal the essence of the given problem and deliver it to the reader completely.

We believe that this introduced textbook will assist in learning, researching and teaching the political science: in studying the lecture subjects and help the students to get prepared for seminar studies and exams. Also, it will have a positive impact on the enrichment of the style of political thinking and political conscience of people engaged in learning of political knowledge.

**RAMİD SÖHBƏT OĞLU HÜSEYNOV**

# POLİTOLOGİYA

ALİ MƏKTƏBLƏR ÜÇÜN DƏRS VƏSAİTİ

Mətbənin direktoru: **Şəddat Cəfərov**

**Kompüter tərtibatçıları:**

Şəlalə Əliyeva
Aynurə Həsənzadə

Çapa imzalanmışdır: 20.12.2017.
Kağız formatı 60x84 $^{1}/_{16.}$
Fiziki çap vərəqi 17.5
Tirajı: 300.

Kitab **"3 saylı Bakı Mətbəəsi"** ASC-də
ofset çap üsulu ilə çap olunmuşdur.

Ünvan: Bakı şəh., Asif Məhərrəmov küç. 4
Tel./Faks: (+994 12) 431 40 58
E-mail:3_metbee@mail.ru
www.shaddat.3dn.ru